# Təhlükəsizlik qaydalarının gözlənilməsi

Təsərrüfatlarda taxıl və ot biçini kampaniyası davam edir. Bu mövsümdə həm dənli və texniki bitkilərin yanğın təhlükəsizliyi, həm də bəzi hallarda biçilmiş sahələrin təmizlənməsi məqsədilə kortəbii şəkildə yandırılmasının qarşısının alınması çox vacib məsələdir. Dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğından qorunması, həmçinin meşələrin yanğın təhlükəsizliyinin təmin olunması, o cümlədən ümumiyyətlə ölkənin maddi sərvətlərinin və vətəndaşların mülkiyyətinin yanğından qorunması, bununla əlaqədar qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün ilk öncə əhalinin bu sahədə maariflləndirilməsi əsas şərtdir.

Bu məqsədlə FHN Şimal-qərb Regional Mərkəzi Şimal-qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsi ilə birlikdə Qəbələ rayon Paylayıcı Elektrik Şəbəkəsinin əməkdaşlarının iştirakı ilə müxtəlif tarixlərdə Qəbələ rayonunun Zalam, Hacallı, Kürd, Bayramkoxalı, Qaradeyin, Mamaylı, Ovculu, Savalan, Beyli, Quşlar, Dızaxlı, Mirzəbəyli, Tikanlı, Bunud, Seyidqışlaq, Həzrə, Nohurqışlaq, Tüntül, Əmirvan, Nic, Bum, Vəndam qəsəbə İnzibati Ərazi Nümayəndəliklərinin iştirakı ilə əkin və biçənək sahələrinin yanğından mühafizəsi ilə bağlı maarifləndirmə tədbirləri keçirmişdir.

Tədbirlərə kənd və qəsəbə inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri və üzvləri, ərazidə əkinçiliklə məşğul olan sahibkarlar cəlb olunmuşdular.



Tədbirdə Mərkəzin əməkdaşları son dövrlərdə dünyanın qlobal problemi olan təbii və insan faktoru nəticəsində yaranan meşə yanğınları, həmçinin dənli və texniki bitgilərin yığılması, daşınması və emalı dövründə yanğın təhlükəsizliyi qaydaları haqqında geniş məlumat vermiş, Şimal-qərb Regional Dövlət Yanğın Nəzarət İdarəsinin əməkdaşı tədbir iştirakçıları qarşısında Azərbaycanda baş vermiş yanğınlar və onların baş vermə səbəbləri haqqında, yüksək gərginlikli elektrik hava xətlərinin mühafizə zonalarında və ətraf sahələrdə yanğına qarşı qabaqlayıcı tədbirlər barədə ətraflı çıxışlar etmişdir.

Sonra qeyd olunub ki, taxıl və biçənək sahələrinin bəzi hissələri Respublika üçün son dərəcə strateji əhəmiyyətə malik olan hava elektrik verilişi xətlərinin qoruq zonasında yerləşir. Bəzi hallarda elektrik xətlərində baş verən nasazlıq üzündən sahələrdə yanğınlar baş verir. Bəzən də təsərrüfat sahibləri bir qayda olaraq biçin qurtaran kimi öz taxıl sahələrini təmizləmək məqsədi ilə kövşənləri odlayırlar. Yaranan güclü alov nəticəsində isə yuxarıda qeyd olunan hava elektrik verilişi xətlərində zədələnmə, qısa qapanma və qəzalar baş verir. Hər iki halın qarşısının alınması üçün bütün texniki və yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi və bu sahədə fəaliyyət göstərən insanların daim maarifləndirilməsi olduqca vacib məsələdir.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Taxıl biçini başa çatdı

Qəbələ taxılçıları ilbəil taxıl istehsalını artırır. Aqrotexniki qaydalara riayət edilməsi məhsuldarlığın artırılmasına səbəb olmuşdur.

Ötən ilin payızında qəbələlilər 25.958 hektar sahədə taxıl əkmişdi. İyun ayının üçüncü ongünlüyündə biçinə başlayan fermerlər və fiziki şəxslər taxıl biçinini uğurla başa çatdırmışlar. Taxıl biçinində həm fiziki şəxslərə məxsus, həm də «Aqroservis» filialına məxsus olan 40-dan çox kombayn və digər texnika saz vəziyyətdə iştirak etmişdir. Hər hektarın məhsuldarlığı orta hesabla 25,2 sentnerə çatdırılıb. Bu isə ötən ilin müvafiq dövründən 1,2 sentner çoxdur. Bu il cəmi 65.400 ton taxıl istehsal olunub ki, bu da ötən ildəkindən 3.268 ton çoxdur.

Havalar əlverişsiz keçsə də, kombaynçılar vaxt itirmədən məhsulu tez yığa bilmişlər.

Taxıl yığımı dövründə rayonda təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilmiş, taxıl sahələrinin yanğınla üzləşməməsi üçün rayonun əlaqədar təşkilatları taxıl sahələrini nəzarətdə saxlamışlar. Yanacaq məsələləri də rayonda lazımi qaydada həll olunub. Ötən illərdə olduğu kimi yenə «Gilan» MMC-nin, «Həsrət» kəndli fermer təsərrüfatının, Nic qəsəbəsinin, Bayramkoxalı, Kürd kəndlərinin taxılçıları və Qaş ərazisində taxıl əkən iş adamları məhsul istehsalında üstünlük təşkil etmişlər.

**«Qəbələ».**

# Doğma ölkəmizdə

### Bakıda Gəncənin 4000 illik yubileyi münasibətilə tədbir keçirilmişdir

Bakı şəhərində bu yaxınlarda istifadəyə verilmiş "Alov Dilləri" kompleksindəki "Fairmont Baku" otelində, Azərbaycanın, eyni zamanda dünyanın ən qədim şəhərlərindən olan Gəncənin 4000 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.

tədbirdə UNESCO-nun baş direktoru İrina Bokova və İordaniya Kraliçası Nur Əl Hüseyninin Gəncənin 4000 illik yubileyi münasibətilə təbrik məktubları oxunmuşdur.

### BTC-nin tam sistem kimi istifadəyə verilməsindən 7 il ötür

Bakı-Tbilisi-Ceyhan neft nəqli sistemini regionun arteriyası adlandıranlar heç də yanılmırlar. Kəmərə Azərbaycanı dünya ilə sıx birləşdirən "kəmər" və ya "körpü" deyənlər də var.

Kəmər 2005-ci ilin may ayından indiyədək fasiləsiz və təhlükəsiz işləyir. 2 terminal, 8 nasos stansiyası, 101 məntəqədən ibarət kəmər 3 ölkə ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. BTC-nin inşası 4 milyard dollardan çox vəsaitə başa gəlib. Bu tikintiyə 22 min nəfər cəlb edilib.

İndi hər gün kəmər 1,2 milyon barel neft ötürücülük gücünə malikdir. İndiyədək bu kəmərlə 217 milyon tondan çox neft yola salınıb. Yola salınan neftin 215 milyon tondan çoxu satılıb. Ceyhan limanından 2200-dən çox tanker yüklənib.

### İlin birinci yarısında Pensiya və müavinətlərin maliyyələşməsi üçün Dövlət Sosial Müdafiə Fondu tərəfindən yönəldilən vəsait 3,5 faiz artıb

2013-cü ilin birinci yarısında fondun gəlirləri proqnozun 101,9 faizi qədər, yəni 1306,6 milyon manat təşkil etmişdir. Bu da 2012-ci ilin birinci yarısına nisbətən 34,2 milyon manat və ya 2,7 faiz çoxdur. Cari ilin birinci yarısında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2012-ci ilin birinci yarısına nisbətən 11,9 faiz və ya 77 milyon manat təşkil etmiş, proqnoz 103,1 faiz icra olunmuşdur.

İlin birinci yarısında DSMF-nin xərcləri 1241,1 milyon manat olmuşdur. həmin dövrdə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün fond tərəfindən 1219 milyon manat vəsait yönəldilmişdir. Bu da əvvəlki ilin müvafiq dövrünə görə 41,3 milyon manat və ya 3,5 faiz çoxdur.

### Qeyri-neft sektoru inkişaf edir

Cari ilin yanvar-may aylarında daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22,3 faiz artaraq ümumi sərmayənin 73,4 faizini təşkil edib. Bunun 77,7 faizi dövlət, 22,3 faizi qeyri-dövlət mülkiyyətli müəssisə və təşkilatların payına düşüb. Ümumiyyətlə, yanvar-may aylarında qeyri-neft bölməsinin inkişafına sərf edilən vəsaitin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 26,1 faiz artaraq 3917,1 milyon manat, yəni ümumi sərmayənin 68 faizini təşkil edib. O cümlədən 907,6 milyon manat (15,7 faizi) qeyri-neft sənaye bölməsinin inkişafında istifadə edilib.

### Yeni cins heyvanlar alınacaq

Azərbaycana ilin sonunadək 500 baş damazlıq cins heyvan gətiriləcək.

İlkin olaraq gətirilmiş 160 baş damazlıq heyvanların 100 başı Biləsuvar rayonunda, 60 başı isə Bərdə rayonunda yerləşən və dövlətin güzəştli kreditləri hesabına yaradılan heyvandarlıq kompleksinə verilib.

İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək-Milli Fondu indiyədək 15 müasir heyvandarlıq kompleksinin yaradılmasına 57,2 milyon manat məbləğində güzəştli kredit verib. Artıq 9 heyvandarlıq kompleksi fəaliyyət göstərir.

**Topladı: Nadir ATAKİŞİYEV.**